| | |
|---|---|
| RAZILAŞDIRILMIŞDIR: | TƏSDIQ EDIRƏM: |
| Azərbaycan Respublikası | “AtaSığorta” |
| Maliyyə Nazirliyinin | Açıq Səhmdar Cəmiyyətinin |
| Dövlət Sığorta Nəzarəti | Idarə Heyətinin sədri |
| Şöbəsinin müdiri | |
| __________________ N.C.Xəlilov | ________________ F.F.Əsədov |
| “___” ___________ 2009-cu il | “___” ___________ 2009-cu il |

# AVTOMOBİL NƏQLIYYATI VASITƏLƏRININ KASKO SIĞORTASI QAYDALARI

Bakı 2009

ÜMUMİ MÜDDƏALAR

Bu Qaydalar Azərbaycan Respublikasının «Sığorta fəaliyyəti haqqında» Qanununa, Mülki Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

## 1. SIĞORTA TƏMİNATININ ƏHATƏ DAİRƏSİ:

1.1. Sığortalının nəqliyyat vasitələrinə aşağıda göstərilən risklərdən biri və ya bir neçəsinin (yalnız sığorta şəhadətnaməsində göstərilən risklərin) nəticəsində dəyən maddi ziyan:

1.1.1. İstər hərəkət halında, istərsə də hərəkətsiz vəziyyətdə olan nəqliyyat vasitəsinə sığortalıdan və ya sığorta şəhadətnaməsinə əsasən səlahiyyətli idarə edəndən asılı olmayaraq gözlənilməz və xarici təsirlər nəticəsində sabit və ya hərəkətli bir cismin toxunması, nəqliyyat vasitəsinin belə cismləri vurması nəticədə nəqliyyat vasitəsinin zədələnməsi, aşması, düşməsi kimi qəzalarla bağlı ziyan və zərərlər;

1.1.2. Üçüncü şəxslər tərəfindən nəqliyyat vasitəsinə qəsdən vurulan ziyan və zərərlər (vandalizm);

1.1.3. Nəqliyyat vasitəsinin yanması;

1.1.4. Nəqliyyat vasitəsinə ildırım vurması və ya partlayış nəticəsində dəyən ziyan və zərərlər;

1.1.5. Nəqliyyat vasitəsinin və ya onun hissələrinin oğurlanması (yalnız təkərlərin oğurlanması istisna olmaqla) və ya oğurlanmasına cəhd nəticəsində nəqliyyat vasitəsinə dəyən zərərlər;

1.1.6. Soyğunçuluq və quldurluq nəticəsində baş vermiş zərərlər;

1.1.7. Nəqliyyat vasitəsinə sel, daşqın, su basması və ya fırtına nəticəsində dəyən zərərlər;

1.1.8. Zəlzələ və ya vulkan püskürməsi nəticəsində dəyən zərərlər;

1.1.9. Terror aktları və bu aktlarla əlaqədar təxribatlar nəticəsində dəyən zərərlər;

1.1.10. Nəqliyyat vasitəsinə, yanğın istisna olmaqla, siqaret və bu kimi maddələrdən dəyən zərərlər;

1.1.11. Nəqliyyat vasitəsinin səlahiyyətli şəxslər tərəfindən lazımi qaydalara əməl olunmaqla, başqa nəqliyyat vasitəsinə qoşularaq çəkilməsi ilə əlaqədar nəqliyyat vasitəsinə dəyən zərərlər;

1.1.12. Nəqliyyat vasitəsində müvafiq qaydalara əməl etməklə və daşınmasına qanunla icazə verilən partlayıcı, tezalovlanan və oddan təhlükəli maddələrin daşınması zamanı nəqliyyat vasitəsinə dəyən zərərlər;

1.1.13. Sığorta şəhadətnaməsində göstərilən nəqliyyat vasitəsinə sonradan quraşdırılmış və həmin nəqliyyat vasitəsinin istehsal komplektinə daxil olmayan hər cür səs, telefon, görüntü cihazları və digər aksessuarlara dəyən zərərlər;

1.1.14. Nəqliyyat vasitəsinin sığorta hadisəsinə uğraması nəticəsində yararsız vəziyyətə düşməsindən irəli gələn gəlir itkisi;

1.1.15. Sığorta hadisəsi nəticəsində zərərə uğramış sığortalı nəqliyyat vasitəsinin təmir müddəti ərzində sığortalının digər nəqliyyat vasitəsi ilə təmin olunması (60 gündən artıq olmamaq şərti ilə).

## 2. SIĞORTANIN ƏRAZİSİ:

Sığorta, sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikası ərazisində qüvvədədir. Azərbaycan Respublikasının sərhədlərindən kənarda meydana gələn zərərlərə yalnız əlavə olaraq sığorta şəhadətnaməsində razılaşdırılmaqla təminat verilə bilər.

## 3. SIĞORTA TƏMİNATINA DAXİL OLMAYAN ZƏRƏRLƏR (İSTİSNALAR):

3.1. Müharibə, hər cür hərbi əməliyyatlar, xarici düşmən basqını, (müharibə elan edilib-edilməməsindən asılı olmayaraq), vətəndaş müharibəsi, üsyan və bunların qarşısının alınması və yatırılması məqsədilə keçirilən inzibati və hərbi tədbirlərdən dəyən zərərlər;

3.2. Hər hansı nüvə partlayışı, radiasiya və radioaktiv çirklənmələr, bunlarla əlaqədar keçirilən hərbi və inzibati tədbirlərdən dəyən zərərlər;

3.3. Nəqliyyat vasitəsinin qoşulub çəkilməsi halı istisna olmaqla, səlahiyyətli orqanlar tərəfindən sığortalanmış nəqliyyat vasitəsindən istifadə zamanı nəqliyyat vasitəsinə dəyən zərərlər;

3.4. Sığorta şəhadətnaməsində göstərilən nəqliyyat vasitəsinin müvafiq sürücülük hüququna malik olmayan şəxs tərəfindən idarə edilməsi zamanı nəqliyyat vasitəsinə dəyən zərərlər;

3.5. Nəqliyyat vasitəsinin narkotik maddələr, psixotrop maddələr və ya spirtli içkilər qəbul etmiş şəxs tərəfindən idarə olunması zamanı nəqliyyat vasitəsinə dəyən zərərlər;

3.6. Nəqliyyat vasitəsinin sığortalı, sığortalının işçisi və ya sığortalı ilə birlikdə yaşayan şəxs tərəfindən qaçırılması və ya oğurlanması zamanı nəqliyyat vasitəsinə dəyən zərərlər;

3.7. Mühərrikdə və ya nəqliyyat vasitəsinin digər müvafiq hissələrində yağ və ya suyun olmaması, donma, xarab olma, köhnəlmə, çürümə, paslanma və baxımsızlıq nəticəsində nəqliyyat vasitəsinə dəyən bütün digər zərərlər;

3.8. Sığorta hadisəsi ilə əlaqədar olmayan və eyni zamanda sığorta hadisəsinə səbəb olmadıqda, nəqliyyat vasitəsinin mexaniki hissələrinin sınması, elektrik və elektron qurğularının xarab olması, kompüter sistemində nasazlıq, təkərlərin korlanması;

3.9. Nəqliyyat vasitəsinin qəza və ya nasazlıq nəticəsində məcburi olaraq daşınması və ya qoşulub çəkilməsi zamanı (təminatın əhatə dairəsinə daxil olan zərərlər istisna olmaqla) və ya nəqliyyat vasitəsinin özünün girib-çıxa bildiyi (marşrut üzrə işləyən gəmilər və qatarlar istisna olmaqla) avtomobil, dəniz, çay və hava nəqliyyat vasitələrində daşınması zamanı dəyən zərərlər;

3.10. Nəqliyyat vasitəsində, onun texniki sənədində göstərilən yükgötürmə qabliyyətindən artıq miqdarda yük və sərnişin daşınması nəticəsində dəyən zərərlər;

3.11. Nəqliyyat vasitəsinin texniki təyinatına uyğun gəlməyən məqsədlərlə istifadə olunması nəticəsində dəyən zərərlər;

3.12. Nəqliyyat vasitəsi qanunvericiliyə və ya şəhadətnaməyə əsasən səlahiyyəti olmayan şəxs tərəfindən idarə olunduğu zaman dəyən zərərlər;

3.13. Sığortalının, faydalanan şəxsin və ya nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxsin qəsdi;

3.14. Sığortalının, faydalanan şəxsin və ya nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxsin kobud ehtiyatsızlığı nəticəsində nəqliyyat vasitəsinə dəyən zərərlər; Bu Qaydalara əsasən kobud ehtiyatsızlıq dedikdə aşağıdakı hallar nəzərdə tutulur:

3.14.1. İşıqforun və ya nizamlayıcının qadağanedici işarəsində hərəkətin davam etdirilməsi;

3.14.2. Hərəkət istiqamətlərinə aid olan tələblərin pozulması;

3.14.3. Yolda müəyyən edilmiş hərəkət sürətinin yaşayış məntəqələrində 20 km/saatdan, magistral yollarda 30 km/saatdan artıq aşılması;

3.15. Sığortalı avtomobilin təyinatından kənar və ya sığorta şəhadətnaməsində göstərilmiş istifadə növündən kənar məqsədlər üçün idarə olunması nəticəsində dəyən zərərlər;

3.16. Gecə saatlarında, yəni yerli vaxtla saat 00:00-dan 06:00-dək (istifadə olunmayan zaman) qarajda və ya mühafizə olunan ərazidə saxlanılmayarkən baş verən oğurluq və oğurluğa cəhd nəticəsində dəyən zərərlər;

3.17. Avtonəqliyyat vasitəsinin hər hansı qeyri qanuni daşıma, ticarət və ya cinayət məqsədi ilə istifadə edilməsi nəticəsində dəyən zərərlər;

3.18. İş maşınlarından, müxtəlif növ traktorlardan, yük maşınlarından, beton qarışdıran və bu cür digər maşınlardan istifadə zamanı onların iş prosesi ilə birbaşa səbəb-nəticə bağlılığında olan qəzalar nəticəsində dəyən zərərlər;

3.18. Sığorta şəhadətnaməsinə əsasən təminat verilmiş risklərdən irəli gələn zərərlərdən başqa, bütün zərərlər;

3.19. Mənəvi zərər;

3.20. Sığortalı nəqliyyat vasitəsinin bazar dəyərinin aşağı düşməsi;

3.21. Baş vermiş qəza zamanı nəqliyyat vasitəsini idarə edən şəxs sərxoşluq vəziyyətinin yoxlanılması məqsədi ilə keçiriləcək tibbi müayinədən imtina etdikdə.

## 4. NƏQLİYYAT VASİTƏSİNİN DƏYƏRİNDƏN AZ MƏBLƏĞDƏ OLAN (QISMƏN) SIĞORTA:

4.1. Sığorta şəhadətnaməsində göstərilən sığorta məbləği sığortalanmış nəqliyyat vasitəsinə zərər dəyən andakı real dəyərindən az olduğu hallarda ödəniş sığorta məbləğinin nəqliyyat vasitəsinin dəyərinə olan nisbətində ödənilir;

4.2. Sığorta şəhadətnaməsi yuxarıda göstərilən nisbət nəzərə alınmadan, sığorta məbləğindən artıq olan zərərin bütövlükdə sığortaçı tərəfindən ödənilməsi formasında yalnız dəyişdirilə bilər. Sığortalı, sığorta şəhadətnaməsinin bu formada dəyişdirilməsini sığorta hadisəsi baş verməmişdən əvvəl yazılı şəkildə sığortaçıya bildirməlidir. Sığortalı, sığorta haqqı fərqini sığorta haqqının ödənilmə qaydalarına uyğun olaraq ödəməlidir.

## 5. NƏQLİYYAT VASİTƏSİNİN DƏYƏRİNDƏN ARTIQ MƏBLƏĞDƏ OLAN SIĞORTA:

5.1. Sığorta məbləği və ya sığortaçının zərərlə əlaqədar ödəməli olacağı məbləğ sığortalanmış nəqliyyat vasitəsinin sığorta hadisəsi baş verən andakı real dəyərindən artıq olarsa, sığorta məbləğinin artıq olan hissəsi ödənilmir.

5.2. Sığortaçı, sığorta müddəti ərzində sığorta məbləğinin nəqliyyat vasitəsinin dəyərindən artıq olduğundan xəbər tutarsa, vəziyyəti sığortalıya bildirərək, sığorta haqqının artıq olan hissəsini ona geri qaytarır.

## 6. AZADOLMA MƏBLƏĞI:

Tərəflər sığorta şəhadətnaməsində, sığorta hadisəsi zamanı sığorta məbləğinin müəyyən bir faizinə qədər olan zərərin və yaxud zərərin müəyyən bir məbləğinin sığortaçı tərəfindən ödənilməyəcəyini (azadolma məbləğini) razılaşdıra bilərlər.

## 7. SIĞORTANIN MÜDDƏTİ, TƏMİNATIN BAŞLANMASI VƏ SONA ÇATMASI:

Sığorta təminatı, əgər sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmayıbsa, sığorta şəhadətnaməsində göstərilmiş başlanma və sona çatma tarixlərində Bakı vaxtı ilə saat $24^{00}$-da başlayır və saat $24^{00}$-da sona çatır.

## 8. SIĞORTA HAQQININ ÖDƏNİLMƏSİ VƏ SIĞORTA MÜQAVİLƏSİNİN QÜVVƏYƏ MİNMƏSİ:

8.1. Sığorta haqqının bütövlükdə və ya hissələrlə ödənilməsi razılaşdırıla bilər.

8.2. Sığorta haqqının hissə-hissə ödənilməsi razılaşdırıldıqda, sığorta haqqının ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq, qalan hissəsi isə sığorta şəhadətnaməsində göstərilən tarixlərdə ödənilir.

8.3. Sığorta haqqının hissələrlə ödənilməsi razılaşdırıldığı halda sığorta hadisəsi baş verdiyi zaman vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı sığorta ödənişi məbləğindən çıxıla bilər.

8.4. Sığorta haqqının hissələrlə ödənilməsi razılaşdırıldığı hallarda, hissələrdən hər hansı biri şəhadətnamədə göstərilən vaxtda ödənilməzsə, sığortaçı həmin hissənin 10 gün ərzində ödənilməsini, əks təqdirdə sığorta şəhadətnaməsinin ləğv ediləcəyini sığortalının ona bildirmiş olduğu son yaşayış ünvanına sifarişli məktubla bildirir. Sığorta haqqı borcu bu müddət ərzində də ödənilməzsə, sığorta şəhadətnaməsi ləğv edilmiş hesab olunur.

## 9. SIĞORTALININ MÜQAVİLƏ BAĞLANDIĞI ZAMAN MƏLUMAT VERMƏK VƏZİFƏLƏRİ:

9.1. Sığorta müqaviləsi bağlanarkən sığortalı sığorta riskinin müəyyən olunması və sığorta haqqının hesablanması üçün zəruri olan və ona məlum olan bütün halları və məlumatları sığortaçıya bildirməlidir.

Sığortalının bildirdiyi məlumatların yanlış və ya yarımçıq olması aşkar olunarsa:

9.1.1. Sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən 1 ay ərzində sığorta şəhadətnaməsinin şərtlərini dəyişdirə, əlavə sığorta haqqı almaqla sığorta şəhadətnaməsini qüvvədə saxlaya və ya dərhal sığorta şəhadətnaməsini ləğv edə bilər. Həmçinin, sığorta hadisəsi baş verərsə, ödəniş verməyə bilər.

9.1.2. Sığortalı şəhadətnamənin şərtlərinin dəyişdirilməsinə və ya əlavə sığorta haqqı ödəməyə razı olmazsa, sığorta şəhadətnaməsi dərhal ləğv edilir.

Sığortalı xəbərdarlıq edildikdən sonra 15 gün ərzində əlavə sığorta haqqını ödəməzsə sığorta şəhadətnaməsi ləğv edilmiş hesab olunur.

9.2. Sığorta hadisəsi sığortaçı vəziyyəti öyrənməmişdən əvvəl və ya sığortaçının sığorta şəhadətnaməsinin ləğv olunmasını tələb edə biləcəyi müddət ərzində və yaxud şəhadətnamə ləğv edilmiş hesab olunana qədər keçən müddət ərzində baş verərsə, sığortaçı, ödənişi ödənilən sığorta haqqı ilə ödənilməli olan sığorta haqqı arasındakı nisbət həcmində azalda bilər.

## 10. SIĞORTA MÜDDƏTİ ƏRZİNDƏ SIĞORTALININ MƏLUMAT VERMƏK VƏZİFƏLƏRİ:

10.1. Sığorta şəhadətnaməsi imzalandıqdan sonra sığortalanmış nəqliyyat vasitəsi ilə bağlı sığortalının bildirdiyi hallarda dəyişiklik baş verərsə, o, riskə təsir edə bilən və ona məlum olan bütün dəyişikliklər haqqında sığortaçıya ən geci 5 gün ərzində məlumat verməlidir.

10.2. Sığortaçı dəyişikliyi öyrəndiyi tarixdən etibarən 5 gün ərzində sığorta şəhadətnaməsini ləğv edə bilər, şərtlərini dəyişdirə və ya əlavə sığorta haqqı tələb etməklə qüvvədə saxlaya bilər.

10.3. Sığortalı, 5 gün ərzində tələb edilən əlavə sığorta haqqını ödəməyəcəyini bildirdiyi təqdirdə sığorta şəhadətnaməsi ləğv edilmiş hesab olunur.

Sığorta şəhadətnaməsinin ləğv edilmiş hesab olunmasına qədər keçən müddətin sığorta haqqı, sığorta şəhadətnaməsinin ləğv edilməsi halında gün hesabına görə, çəkilmiş xərclər çıxılmaqla (həyata keçirilmiş sığorta ödənişləri daxil olmaqla) hesablanır və artıq hissəsi geri qaytarılır.

10.4. Sığortalanmış nəqliyyat vasitəsinin vəziyyətində və ya istifadə tərzində ortaya çıxan və sığorta riskinin başvermə ehtimalını artıran dəyişiklikləri sığortalı göstərilən müddət ərzində qəsdən bildirməmişdirsə, bu dəyişiklik edildiyi andan sonra baş verən zərərlərə görə sığortaçı məsuliyyət daşımır.

10.5. Dəyişiklik riskin başvermə ehtimalını azaldarsa və daha az sığorta haqqının alınmasını tələb edərsə, bu dəyişikliyin edildiyi tarixdən sığorta şəhadətnaməsinin sona çatma tarixinə qədər olan müddət üçün sığorta haqqı gün hesabına görə hesablanır və fərq sığortalıya qaytarılır.

# ZƏRƏR VƏ ÖDƏNİŞ

## 11. SIĞORTA HADİSƏSİ ZAMANI SIĞORTALININ VƏZİFƏLƏRİ:

Sığortalı, sığorta şəhadətnaməsində göstərilən sığorta riskinin baş verdiyi zaman zərərin qarşısını almaq və ya miqdarını azaltmaq üçün zəruri məqsədəuyğun tədbirləri görməlidir.

Zərərin qarşısını almaq və ya miqdarını azaltmaq məqsədilə çəkilən məqsədyönlü xərclər sığortaçı tərəfindən ödənilir.

## 12. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏN SONRA SIĞORTALININ VƏZİFƏLƏRİ:

Sığortalı, sığorta hadisəsi baş verdikdən sonra:

12.1. Əgər sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmamışdırsa, sığortalı hadisənin baş verdiyini bildiyi və bilməli olduğu gün dərhal və ya ən geci 24 saat ərzində sığortaçıya və müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir.

12.2. Zərərin qarşısının alınması və ya azaldılması üçün hərəkətlər istisna olmaqla, sığorta hadisəsinin baş verdiyi yer və ya əşyalarda heç bir dəyişiklik etməməlidir, həmçinin hadisə yerini tərk etməməlidir;

12.3. Təmir işlərinə sığortaçının razılığı olmadan başlamamalıdır;

12.4. Hadisənin səbəblərini, şəraitini və şərtlərini müəyyən etmək, zərər və ziyanın miqdarını təsbit etmək üçün hadisənin baş verdiyi gündən 3 gün müddətində sığortalıya yazılı məlumat verməlidir (ərizə), yararlı dəlilləri və sığortalı üçün əldə edilməsi mümkün olan lazımi məlumat və sənədləri (sənədin əsli və ya özü tərəfindən təsdiq olunmuş surəti və ya fotosurəti) sığortaçının tələbi ilə gecikdirmədən ona verməlidir və onları mühafizə etməlidir;

12.5. Ödəniş məsuliyyəti və məbləği həcmində iddia hüququnun təsbit olunması üçün sığortaçının səlahiyyət verdiyi təmsilçilərinə sığortalanmış əmlak və bunlarla əlaqədar sənədlər üzərində aparacaqları araşdırma və tədqiqatlara icazə verməli və bunun üçün müvafiq şərait yaratmalıdır;

12.6. Sığorta obyekti başqa sığorta şirkətlərində də sığorta etdirilmişdirsə, bunu sığortaçıya bildirməlidir;

12.7. Üçüncü şəxslərin hərəkətləri nəticəsində nəqliyyat vasitəsinə zərər dəyərsə, şübhələndiyi şəxslər haqqında səlahiyyətli orqanlara məlumat verməli və mümkün olan hallarda şahidlik izahatı verməlidir;

12.8. Sığortaçının tələb etdiyi sığorta ödənişinin verilməsində əhəmiyyət kəsb edən bütün zəruri sənədləri ona vaxtında təqdim etməlidir.

## 13. ZİYAN VƏ ZƏRƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ:

13.1. Nəqliyyat vasitəsinə dəymiş ziyanın məbləği sığortalı ilə sığortaçı arasındakı razılaşmaya görə müəyyən edilir. Tərəflər razılığa gələ bilmədikləri təqdirdə ziyan və zərərin miqdarı peşəkar şəxslər arasından seçiləcək mütəxəssis və ya ekspertlər tərəfindən müəyyən edilir.

13.2. Tərəflər müştərək mütəxəssis və ya ekspert seçməkdə razılığa gələ bilmədikləri halda, tərəflərdən hər biri öz mütəxəssis və ya ekspertini təyin edir və bunu sifarişli məktubla digər tərəfə bildirir.

Mütəxəssis və ya ekspertlər təyin olunduqları tarixdən etibarən 7 gün ərzində və tədqiqata başlamazdan əvvəl üçüncü bitərəf mütəxəssisi və ya eksperti seçə bilərlər. Üçüncü mütəxəssis və ya ekspert yalnız tərəflərin mütəxəssis və ya ekspertlərinin razılığa gələ bilmədikləri məsələlər barəsində rəy vermək hüququna malikdir. Üçüncü mütəxəssis və ya ekspert rəyini müstəqil şəkildə və ya tərəflərin mütəxəssis və ya ekspertləri ilə birlikdə verə bilər. Üçüncü mütəxəssis və ya ekspertin rəyləri tərəflərə eyni zamanda çatdırılır.

13.3. Tərəflərdən hər hansı biri digər tərəfə məlumat verdiyi tarixdən etibarən 15 gün ərzində öz mütəxəssis və ya ekspertini təyin etməzsə, yaxud tərəflərin seçdiyi mütəxəssis və ya ekspertlər üçüncü mütəxəssis və ya ekspertin seçilməsi barəsində seçildikləri tarixdən etibarən 7 gün ərzində razılığa gələ bilməzlərsə, mütəxəssis və ya ekspertlərin və ya üçüncü bitərəf mütəxəssis və ya ekspert tərəflərdən birinin istəyi ilə zərərin baş verdiyi ərazidə yerləşən mülki mübahisələrə baxmağa səlahiyyəti olan məhkəmə tərəfindən seçilir.

13.4. Hər iki tərəf üçüncü mütəxəssis və ya ekspertin sığortaçının və ya sığortalının yerləşdiyi və ya zərərin meydana gəldiyi inzibati rayon xaricindən seçilməsini tələb etmək hüququna malikdir və bu tələbin yerinə yetirilməsi vacibdir.

13.5. Mütəxəssis və ya ekspert vəfat edərsə, vəzifəsindən azad edilərsə və ya rədd edilərsə, yenisi eyni yolla seçilir və araşdırma işi dayandırıldığı yerdən davam etdirilir.

13.6. Sığortalının vəfat etməsi ilə təyin edilmiş mütəxəssis və ya ekspertin vəzifəsi bitmir. Mütəxəssis və ya ekspertlərin ixtisas səviyyələrinin aşağı olmasına görə edilən etiraz, bu şəxslərin ixtisas səviyyələri müəyyən edildiyi tarixdən etibarən 7 gün ərzində edilmədiyi halda hüquqi qüvvəsini itirir.

13.7. Mütəxəssis və ya ekspertlər öz təhqiqatlarında tamamilə müstəqildirlər.

13.8. Ziyan və zərərlərin miqdarının müəyyənləşdirilməsi zamanı mütəxəssis və ya ekspertlər lazım bildikləri dəlilləri, zərər zamanı sığortalanmış əmlakın real dəyərinin müəyyənləşdirilməsinə kömək edən qeyd və sənədləri tələb edə və hadisənin baş verdiyi yerdə araşdırmalar apara bilərlər.

13.9. Mütəxəssis və ya ekspertlərin ziyan və zərərin miqdarı haqqında verəcəyi rəy qətidir və tərəflər buna əməl etməlidirlər.

Mütəxəssis və ya ekspertin rəyinə ancaq onun real vəziyyətindən əhəmiyyətli dərəcədə fərqli olduğu müəyyən olunduğu hallarda etiraz etmək olar və bu rəyin ləğv edilməsi rəy bildirildikdən sonra hadisənin baş verdiyi ərazinin səlahiyyətli məhkəməsi tərəfindən həyata keçirilə bilər.

13.10. Tərəflər ödənişin məbləği haqqında razılığa gələ bilmədikdə, veriləcək ödənişin məbləği ancaq mütəxəssis və ya ekspertlərin rəyinə əsaslanır. Ödənişin verilməsi rəyin tərəflərə göndərildiyi tarixdən əvvəl həyata keçirilə bilməz.

13.11. Tərəflər öz mütəxəssis və ya ekspertinin haqqını ayrılıqda, birlikdə seçdikləri mütəxəssis və ya ekspertin və ya üçüncü mütəxəssis və ya ekspertin haqqını isə birlikdə ödəyirlər.

13.12. Ziyan və zərərin məbləğinin müəyyənləşdirilməsi zamanı risklər, sığorta məbləği, dəyərindən artıq məbləğdə sığorta, məsuliyyətin müddəti, hüquqları məhdudlaşdıran və hüquqlardan məhrum etmə halları əsas kimi nəzərə alınmır.

## 14. SIĞORTA ÖDƏNİŞİNİN HESABLANMASI:

14.1. Sığorta ödənişinin məbləği hesablanarkən sığortalanmış nəqliyyat vasitəsinin sığorta hadisəsi baş verən gündəki real bazar dəyəri əsas götürülür.

14.2. Sığorta hadisəsi nəticəsində sığortalı nəqliyyat vasitəsinə dəymiş zərərin məbləği müəyyən olunmuş sığorta məbləğinin 70%-dən çox olarsa (natamam sığorta istisna olmaqla), avtomobil tam məhv olmuş hesab oluna bilər. Həmçinin, sığorta hadisəsi nəticəsində nəqliyyat vasitəsinə dəymiş zərər müəyyən olunmuş sığorta məbləğinin 70%-dən az olsa belə, nəqliyyat vasitəsinin keyfiyyətli bərpası qeyri mümkün olduqda, sığortaçı ilə sığortalının qarşılıqlı razılaşmasına əsasən avtonəqliyyat vasitəsi tam məhv olmuş hesab edilə bilər. Nəqliyyat vasitəsi tam zərərə uğradıqda (məhv olduqda) sığorta ödənişi, sığortaçının maksimum məsuliyyət həddindən çox olmamaq şərti ilə nəqliyyat vasitəsinin sığorta hadisəsinin baş verdiyi tarixdəki real bazar qiyməti nəzərə alınmaqla verilir. Bu zaman sığorta məbləği tamamilə ödənilmiş nəqliyyat vasitəsi və nəqliyyat vasitəsinin hissələri sığortaçının razılığı ilə onun mülkiyyətinə verilə bilər və ya avtonəqliyyat vasitəsinin sığorta hadisəsinin baş verməsindən əvvəlki bazar qiymətindən onun sığorta hadisəsinin baş verməsindən sonrakı qiyməti çıxılmaqla sığorta ödənişi həyata keçirilə bilər. Sığortalı ilə sığortaçı qəzaya uğramış avtomobilin sığortaçının mülkiyyətinə keçməsini razılaşdırdıqları hallarda, sığortalı mülkiyyət hüququnun sığortaçıya keçməsi üçün bütün zəruri tədbirləri həyata keçirməlidir.

14.3. Sığorta məbləği nəqliyyat vasitəsinin sığorta hadisəsi baş verdiyi gün sığorta dəyərindən az olduqda, sığorta ödənişi sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödənilir.

14.4. Qismən zərərlərdə sığortaçı, təmir xərcləri və təmirin müvafiq qaydada həyata keçirilməsi üçün xidmət mərkəzinə qoşulub çəkilmə və ya daşınma xərclərini də ödəyir. Təmir edilməsi mümkün olmayan hissələr üçün hadisənin baş verdiyi tarixdəki zədələnmiş hissələrin cari real bazar qiymətləri əsas götürülür.

Təmirdən sonra nəqliyyat vasitəsində nəzərə çarpacaq bir qiymət artması meydana gələrsə, bu fərq ödənişin məbləğindən çıxılır.

14.5. Nəqliyyat vasitəsinin oğurlanması və ya tam məhv olması hallarında sığorta məbləğindən artıq olmamaq şərti ilə, nəqliyyat vasitəsinin oğurlandığı və ya tam məhv olduğu tarixindəki real bazar qiyməti ödənilir.

## 15. ÖDƏNİŞ MƏBLƏĞİNİN AZALDILMASI VƏ YA RƏDD EDİLMƏSİ:

15.1 Sığortalı sığorta hadisəsinin baş verməsinə qəsdən şərait yaradarsa və ya ziyan və zərərin miqdarını qəsdən edilən hərəkətlərlə artırarsa, sığortaçı ödəniş vermək öhdəliyindən azad edilir.

15.2. Sığortalı, sığorta hadisəsi baş verdikdən sonra 12.1-12.8-ci bəndlərdə təsbit olunmuş vəzifələrini yerinə yetirməzsə, sığortaçı sığorta ödənişini verməkdən imtina edə bilər.

## 16. ÖDƏNİŞİN VERİLMƏSİ HAQQINDA MƏLUMAT:

Sığortaçı, zərərin miqdarını, sığorta hadisəsinin səbəblərini və şəraitini göstərən sənədlərin ona verilməsindən sonra ən geci 15 iş günü ərzində müvafiq təhqiqatları sona çatdıraraq zərər və ziyanın məbləğini müəyyən etdikdən sonra sığortalıya məlumat verməlidir.

## 17. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİ:

17.1. Sığortalanmış nəqliyyat vasitəsi eyni zamanda bir neçə sığorta şirkətində sığorta etdirilibsə, sığorta ödənişinin məbləği Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və bu Qaydalara uyğun olaraq hesablandıqdan sonra sığortaçı yalnız öz payına düşən zərər məbləğini ödəməyə borcludur.

17.2. Oğurlanmış nəqliyyat vasitəsinin tapılması üçün əlaqədar orqanlar tərəfindən həyata keçirilən axtarışlar nəticə verməzsə, sığortalı müvafiq orqanlar tərəfindən aparılan araşdırmaların nəticəsini (yekun qərarını) sığortaçıya təqdim etməlidir. Sığortalı və ya əmlak sahibinə qarşı cinayət işi başlanarsa, sığortaçı ödənişin verilməsini cinayət işinin sona çatmasına qədər müvəqqəti olaraq dayandırır.

17.3. Oğurlanmış nəqliyyat vasitəsi sığorta ödənişi verilməmişdən əvvəl tapılarsa, sığortalı nəqliyyat vasitəsini götürməlidir.

17.4. Sığortaçı tərəfindən sığorta dəyəri ödənilmiş nəqliyyat vasitəsi ödəniş verildikdən sonra tapılarsa, sığortalı vəziyyəti dərhal sığortaçıya bildirməyə borcludur.

Bu zaman sığortalı sığortaçının vermiş olduğu ödəniş məbləğini qaytarıb nəqliyyat vasitəsini geri götürə bilər və ya nəqliyyat vasitəsinin mülkiyyət hüququnu sığortaçıya verə bilər.

Sığortalı nəqliyyat vasitəsini geri götürərsə, sığortaçı oğurluq hadisəsi nəticəsində nəqliyyat vasitəsinə dəymiş zərər məbləğini ödəməlidir.

17.5. Zərər dəymiş nəqliyyat vasitəsinin və ya onun hər hansı hissəsinin təmir ediləcəyinə və bu halda hansı texniki xidmət müəssisəsində təmir olunacağına və ya eyni vəziyyətdə olan digər nəqliyyat vasitəsi və ya hissələri ilə əvəz ediləcəyinə və ya zərərin nağd pulla ödəniləcəyinə hər bir halda sığortaçı qərar verir.

## 18. ÖDƏNİŞİN NƏTİCƏLƏRİ:

18.1. Sığorta hadisəsinin baş verməsi nəticəsində sığortalanmış nəqliyyat vasitəsi tamamilə zərərə uğrayarsa (məhv olarsa), sığorta məbləği tam ödənildikdən sonra sığorta təminatı sona çatmış hesab olunur. Qismi zərərlərdə isə sığorta məbləği sığorta hadisəsinin baş verdiyi tarixdən etibarən ödənilən zərər məbləği qədər azaldılır.

Sığorta məbləğinin azaldıldığı hallarda, sığortalı sığortaçının razılığı ilə gün hesabına görə hesablanmış əlavə sığorta haqqı ödəməklə sığorta məbləğini əvvəlki məbləğə qədər artıra bilər.

18.2. Sığortaçı verdiyi ödəniş məbləği həcmində sığortalının zərər vurulmasında təqsirkar olan şəxsə qarşı iddia qaldırmaq hüququna (subroqasiya hüququna) sahib olur. Sığortaçı zərər vuralmasında təqsirkar olan şəxsə qarşı subroqasiya qaydasında iddia irəli sürərsə, sığortalı bu iddia ilə əlaqədar zəruri və sığortalı üçün əldə edilməsi mümkün olan sənəd və məlumatları sığortaçıya təqdim etməlidir. Əks təqdirdə sığortaçı öz öhdəliklərini yerinə yetirməkdən azad olunur. Sığortalının zərərin əvəzini zərər vurmuş şəxsdən alması və ya ona qarşı tələb hüqularından imtina etməsi sığortaçını sığorta ödənişini həyata keçirmək öhdəliyindən azad edir.

# DİGƏR MÜDDƏALAR

## 19. İKİlLI SIĞORTA:

Sığortalı, sığortalanmış nəqliyyat vasitəsini başqa sığortaçılarda da eyni risklərə qarşı və eyni müddətə sığorta etdirmişdirsə, bu vəziyyəti sığortaçıya dərhal bildirməlidir.

## 20. MÜLKİYYƏT SAHİBİNİN DƏYİŞMƏSİ:

20.1. Sığorta müddəti ərzində mülkiyyət sahibi dəyişərsə, sığorta müqaviləsi 20.2 və 20.3-cü maddələr nəzərə alınmaqla ləğv edilə bilər.

20.2. Sığortalı vəfat edərsə, sığorta şəhadətnaməsindən irəli gələn bütün hüquq və vəzifələr yeni mülkiyyət sahibinə (varisə) keçir. Sığortanın mövcudluğunu öyrənən yeni mülkiyyət sahibi 15 gün ərzində sığortaçıya məlumat verməzsə bu müddətdən sonra baş verən sığorta hadisələrinə görə sığortaçı məsuliyyət daşımır.

20.3. Sığortaçı dəyişikliyi öyrəndiyi tarixdən etibarən 10 gün əvvəldən xəbərdarlıq etməklə sığorta şəhadətnaməsini ləğv edə bilər.

20.4. Şəhadətnamə ləğv olunan tarixə qədər keçən müddətin sığorta haqqı gün hesabına görə hesablanır və çəkilmiş xərclər çıxılmaqla, artıq qalan məbləğ yeni mülkiyyət sahibinə (varisə) qaytarılır.

## 21. MƏLUMAT VƏ XƏBƏRDARLIQLAR:

Sığortalının xəbərdarlıq və məlumatları sığorta şirkətinə və ya sığorta müqaviləsinin bağlanmasına vasitəçilik edən agentə sifarişli məktubla çatdırılır.

Sığorta şirkətinin xəbərdarlıq və məlumatları sığortalının sığorta şəhadətnaməsində göstərilən hüquqi ünvanına və ya sığorta şəhadətnaməsinin imzalanmasına vasitəçilik edən agentə bildirilən son hüquqi ünvanına sifarişli məktubla çatdırılır.

Tərəflərə imza edilməklə verilən məktublar və ya teleqraf vasitəsi ilə edilən xəbərdarlıq və məlumatlar da sifarişli məktub vasitəsilə bildirilən xəbərdarlıq və məlumatlar səviyyəsində hüquqi qüvvəyə malikdir.

## 22. KOMMERSİYA SİRLƏRİNİN GİZLİ SAXLANILMASI:

Sığortaçı sığortalıya aid öyrənəcəyi kommersiya sirlərini gizli saxlamamaqdan dəyən ziyan və zərərlərə görə məsuliyyət daşıyır.

## 23. MÜBAHİSƏLƏRƏ BAXILMASI:

Sığorta müqaviləsi üzrə ortaya çıxan mübahisələr tərəflərin danışıqları yolu ilə həll edilir. Razılığa gəlinmədiyi təqdirdə mübahisələrə Azərbaycan Respublikasının mövcud qanunvericiliyində müəyyən olunmuş qaydada aidiyyəti məhkəmələrdə baxılır.

## 24. İDDİA MÜDDƏTİ:

Sığorta şəhadətnaməsindən irəli gələn bütün tələblər Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyənləşdirilmiş müddətdə həll edilir.

## 25. XÜSUSİ ŞƏRTLƏR :

Sığorta şəhadətnaməsində əsas şərtlərə və bunlarla əlaqədar olan əlavə şərtlərə (klozlara) zidd olmayan xüsusi şərtlər də yazıla bilər.

Bu qaydalarla sığorta şəhadətnaməsində müəyyən olunmuş şərtlər arasında ziddiyyət yarandıqda, sığorta şəhadətnaməsinin şərtləri üstünlük təşkil edir.